**Zamanın İki Səsi**

Tarixin önündə dayandı bir dağ,
Millətin taleyi Heydər dedilər.
Sönən ümidlərə yandı bir çıraq,
Onu xalqın haqqı, payı bildilər.

O, sönən ocağa can verən nəfəs,
Milləti yoxluqdan var etdi Heydər!
Tarixin önündə qırıldı qəfəs,
Vətəni bəladan qurtardı Öndər!

Səssiz ordu qurdu, təməl ucaltdı,
Hər addımı oldu sabahın payı.
Dövlətin şanını göyə ucaltdı,
Sarsılmaz qüdrətin gəldi harayı.

Lakin bir dağ vardı ulu canında,
Vətən həsrətiylə dindi hər səsi.
Vəsiyyət eylədi ömrün sonunda:
"Gəlsin Qarabağın azad nəfəsi!"

Oğul vəsiyyəti şərəf sayaraq,
"Dəmir Yumruq" ilə qurdu ordunu.
Hər əmrində böyük hikmət quraraq,
Yenidən diriltdi ata yurdunu.

Atanın sözünü tac etdi başa,
Oğul söz vermişsə, demək edəcək.
Qarabağ qovuşdu torpağa, dağa,
Bildik ki, bu Zəfər haqqa gedəcək.

"Dəmir Yumruq" endi, sındı yağılar,
Şuşada ucaldı o şanlı bayraq.
Bitdi otuz illik ağrı, acılar.
Azad nəfəs aldı hər qarış torpaq.

İlhamın imzası - Heydər təməli,
Sarsılmaz dövlətin bükülməz beli!
Qürurla ucaldı zəfər heykəli,
Tarixə həkk oldu sərkərdə əli.

Zamanın iki səsi dindi bu zaman,
Biri yolu açdı, biri fəth etdi.
Zirvədə ucaldı can Azərbaycan,
Xalqım öz andına, kamına yetdi!